# LERİK: TƏHSİL SAHƏSİNDƏ UĞURLAR SEVİNDİRİCİDİR





**Ötən dərs ilini Lerik rayonunun təhsil işçiləri də yüksək nailiyyətlərlə yola salmışlar. Rayonun təhsil işçilərinin ənənəvi sentyabr konfransında 2014/2015-ci dərs ilinin yekunları və yeni dərs ilində qarşıda duran vəzifələr geniş müzakirə olunmuşdur.**

Konfrans iştirakçıları əvvəl ümummilli lider Heydər Əliyevin adını daşıyan meydana gələrək ulu öndərin əzəmətli abidəsini ziyarət etmişlər.

Lerik şəhər mədəniyyət evində keçirilən konfransda təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov məruzə etmişdir. Bildirmişdir ki, rayonda 107 ümumtəhsil məktəbi, o cümlədən 37 tam orta, 47 ümumi orta, 23 ibtidai məktəb, 4 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərir. Tədris ocaqlarında 7677 nəfər şagirdin təlim-tərbiyəsilə 1238 müəllim məşğul olur.

Məktəblərin maddi-texniki bazası əvvəlki illərlə müqayisədə daha da möhkəmləndirilmiş, müasir təhsil texnologiyalarının tətbiqinə diqqət artırılmışdır. Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması daim diqqət mərkəzindədir.

Son on ildə rayonda 44 məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur. Məktəblərin dördü Heydər Əliyev Fondunun vəsaiti hesabına, on ibtidai və bir ümumi orta məktəb rayon icra hakimiyyətinin daxili imkanları hesabına və bir ümumi orta məktəb iş adamları tərəfindən tikilərək şagirdlərin istifadəsinə verilmişdir.

Keçən tədris ilində dörd tam orta, bir ibtidai məktəb binası inşa olunmuş və müasir texniki təlim vasitələri, təzə inventarlarla təchiz edilmişdir. Hazırda 180 şagird yerlik Boykəndil, Pirasora, Anbu kənd tam orta və 180 yerlik Əvilə kənd ümumi orta məktəbləri üçün yeni binalar tikilir. “Bilik Günü”ndə Pirasora və Anbu kənd tam orta məktəbləri öz qapılarını şagirdlərin üzünə açacaqdır.

Təhsilin bütün pillələrində istedadlı uşaqların aşkarlanıb üzə çıxarılması, onlarla işin təşkilinə xüsusi diqqət yetirilir. Keçən dərs ilində olimpiadaların birinci mərhələsində 325, ikinci mərhələdə 112 şagird iştirak etmiş, 3 nəfər respublika mərhələsində iştirak etmək hüququ qazanmışdır.

2014-2015-ci dərs ilində buraxılış imtahanları Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən 7 mərkəzdə keçirilmişdir. XI siniflər üzrə 541 nəfər, o cümlədən 212 nəfər qız tam orta təhsil haqqında attestat, IX siniflər üzrə 716 nəfər, o cümlədən 344 qız ümumi orta təhsil haqqında şəhadətnamə almışdır. Məzunlardan 7-si fərqlənmə şəhadətnaməsinə layiq görülmüşdür. Onlardan 3-ü qızlardır. Eksternat yolu ilə 16 qız attestat, 6 qız şəhadətnamə almışdır.

Buraxılış imtahanlarında Lerik şəhər 1 və 3 nömrəli, internat, Züvüç, Monidigah, Vizəzəmin, Veri, Vistən, Günəşli, Lüləkəran, Lərmərud kənd tam orta, Nücü, Rvarud, Hamarməşə, Kaqoy, Mistan, Veri-Əliabadı, Qılqılov, Buruq məktəblərinin şagirdləri daha yaxşı nəticə göstərmişlər.

Ali məktəblərə 281 məzun sənəd vermiş, əvvəlki illərin məzunları ilə birlikdə 116 nəfər, o cümlədən 20 qız respublikanın ali məktəblərinə qəbul olunmuşdur. Onlardan 15 nəfər 500-dən, 6 nəfər 600-dən çox bal toplamışdır. Yüksək bal toplayanlardan 6-sı qızlardır. Bu göstəricilər əvvəlki ilin göstəricilərindən xeyli yüksəkdir.

Ali məktəblərə qəbul imtahanlarında Lerik şəhər 1 və 3 nömrəli, internat, Veri, Vistən, Qosmalian, Monidigah və Züvüç məktəblərinin məzunları daha çox fərqlənmişlər.

Məktəbdənkənar müəssisələrin uğurları da az deyil. Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin dərnək üzvü Vüqar Babazadə iyun ayında keçirilən “Meşələri qoruyaq” respublika müsabiqəsinin qalibi olmuşdur.

Yeni dərs ilində I-VIII siniflər kurikulumla işləyəcəklər. Bu siniflərdə 5309 şagird təhsil alacaqdır. Rayona 44 adda 23337 nüsxə dərslik və metodik vəsait gətirilərək məktəblərə paylanmışdır. Şagirdlər dərsliklərlə pulsuz təmin olunacaqlar.

Rayon təhsil şöbəsinin müdiri Balaşirin Nəsirov əminliklə bildirmişdir ki, rayonun pedaqoji kollektivləri tədrisin keyfiyyətinin yüksəldilməsi, hər bir şagirdin əsaslı və dərin bilik alması üçün bütün imkanlardan səmərəli istifadə edəcək, uğurları artıracaq, təhsilin inkişafına yeni töhfələr verəcəkdir.

Konfransda Lerik Rayon İcra Hakimiyyəti başçısının Monidigah kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Sulduz Abdullayev, Gürdəsər kənd tam orta məktəbinin müəllimi Vahid Cəbrayılov görülmüş işlər barədə fikirlərini bölüşmüşlər.

Lerik şəhər 3 saylı tam orta məktəbin məzunu, ali məktəblərə qəbul imtahanlarında 616 bal toplamış Fariz Qənizadə, imtahanlardan 652 bal toplamış Nazən Əhmədovanın valideyni-Nücü kənd sakini Qaşqay Əhmədov gənclərin təhsilinə göstərdiyi yüksək diqqət və qayğıya görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirmişlər.

Respublika Təhsil Problemləri İnstitutunun şöbə müdiri Elxan Bəylərov konfransda çıxış edərək təhsil sahəsində aparılan islahatlardan danışmış, rayonun təhsil işçilərinə tövsiyələrini söyləmişdir.

Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyev təhsil sahəsində qazanılan uğurlardan, yeni dərs ilində təhsil işçiləri qarşısında duran vəzifələrdən ətraflı danışmışdır.

Sonra bir qrup qabaqcıl müəllimə fəxri fərman, qəbul imtahanlarında yüksək nəticələr göstərmiş tələbələrə qiymətli hədiyyələr təqdim olunmuşdur.

Konfrans iştirakçıları yekdilliklə Azərbaycan Prezidenti cənab İlham Əliyevə müraciət qəbul etmişlər.

**Əlisəfa HƏSƏNOV,**
**“Respublika”.**